**Möhtərəm cənab Prezident,**

Ölkəmizdə Sizin sayənizdə dünyanı çənginə alan COVİD-19 pandemiyası ilə mübarizə yüksək səviyyədə təşkil olunub. Hətta, sevindirici haldır ki, Siz həyata keçirdiyiniz təxirəsalınmaz tədbirlərlə ən inkişaf etmiş ölkələrə örnək olmusunuz. Sizin qəbul etdiyiniz qərarlar, gördüyünüz işlər, yeni sənaye obyektlərinin işə salınması, yeni səhiyyə ocaqlarının yaradılması, vətandaşların maddi rifahının yaxşılaşdırılması üçün sosial tədbirlərin həyata keçirilməsi vətənimiz və vətandaşlarımız üçündür. Sizin sayənizdə hal-hazırki çətin dövrdə vətandaşlara dünyanın heç bir yerində olmayan dərəcədə yüksək səviyyəli xidmət göstərilir.

Təbii ki, pandemiya bütün dünyanın iqtisadi inkişafına böyük zərbə vurur. Sizin həyata keçirdiyiniz təxirəsalınmaz tədbirlər arasında pandemiya nəticəsində iqtisadiyyatımızda yarana biləcək böhranın qarşısını almaq xüsusi yer tutur. Biz Sizin atdığınız bu misilsiz addımlarla yanaşı, sahibkarlara dəstək proqramınızı təqdirəlayiq qiymətləndiririk. Bu gərgin anlarda sahibkarlara dəstək proqramlarının həyata keçirilməsi bir daha hər kəsə nümunədir. İnanırıq ki, bu çətin dövrdən Sizin başçılığınız altında üzüağ çıxacağıq.

Allah Sizi xalqdan, xalqı Sizdən əskik etməsin. Allah Sizi qorusun!

“Azel-audit” MMC-nin direktoru,

Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, fəxri auditor:

Süleymanova Elzadə Süleyman qızı